2018-ci ilin yanvar-avqust aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 726 milyon 450 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 31 milyon 613 min 200 manatlıq, qeyri-dövlət sektorunda 694 milyon 836 min 800 manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın sənaye müəssisələrində 16515 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 381,7 manat olmuşdur.